1. **L. Vıqotskinin "Sosial inkişaf" nəzəriyyəsinə *aid olmayan* cavabı müəyyənləşdirin.**
   A) Şagirdin inkişafında digər insanlarla ünsiyyəti və sosial mühitin təsiri böyükdür.
   B) Şagirdin böyüdüyü ailə və cəmiyyətin onun gələcək inkişafında təsiri böyükdür.
   C) Şagirdlərin dəstəklənməsi zamanı onların genetik və fizioloji xüsusiyyətləri nəzərə alınmalıdır.
   D) Müəllim fasilitasiya rolunu oynamalı, müxtəlif strategiyalar vasitəsilə şagirdlərin inkişafına dəstək verməlidir.
   E) Yaxın inkişaf zonasında şagirdə dəstək müvəqqəti xarakter daşımalı, o hədəfə çatdıqca bu dəstək azalmalıdır.

2. **Biri altstandartın funksiyasına aid *deyil*:**
   A) Məzmun xəttinin mahiyyətini ümumi şəkildə ifadə edir.
   B) Təlimin məzmununun davamlı inkişafda olmasını təmin edir.
   C) Dərs üçün təlim məqsədlərini müəyyənləşdirməkdə baza rolunu oynayır.
   D) Müəllimə müvafiq təlim strategiyasını seçməyə kömək edir.
   E) Təlim prosesində inteqrasiyanı təmin edir.

3. *"Tədris prosesinin təşkili zamanı müxtəlif öyrənmə ehtiyacına və intellektə malik şagirdlərin nəzərə alınmaması bütün şagirdlərin prosesə cəlb olunmamasına səbəb ola bilər".*
   **Bu zaman ümumi pedaqoji tələblərdən hansının prinsipi daha çox *pozulmuş* olur?**
   A) Təhsildə bərabər imkanların yaradılması
   B) Məktəb-valideyn əlaqələrinin tənzimlənməsi
   C) İnkişafyönümlülük
   D) Şəxsiyyətyönümlülük
   E) Dəstəkləyici mühitin yaradılması

4. *"Köksünü ötürmək" frazeoloji birləşməsinin sinonimini müəyyənləşdirin və cümlədə işlədin".*
   **Tapşırıq B.Blumun İdrak taksonomiyasının hansı mərhələsinə uyğundur?**
   A) təhlil etmək
   B) dəyərləndirmək
   C) yaratmaq
   D) xatırlamaq
   E) tətbiq etmək

5. *"Şagird qaydanı söyləyir və qaydaya uyğun olaraq nümunə gətirir".*
   **Fəaliyyət B.Blumun İdrak taksonomiyasına əsasən idraki fəaliyyətin hansı mərhələsinə aiddir?**
   A) xatırlamaq
   B) anlamaq
   C) təhlil etmək
   D) yaratmaq
   E) dəyərləndirmək

6. *"Uzunluğu enindən 3 dəfə böyük olan düzbucaqlının perimetri 64 sm-dir. Bu düzbucaqlının sahəsini tapın".*
   **Tapşırıq biliyin hansı növünün, B.Blumun İdrak taksonomiyasının hansı mərhələsinin inkişafına yönəlmişdir?**
   A) Prosedural-anlamaq
   B) Deklarativ-xatırlamaq
   C) Prosedural-tətbiq etmək
   D) Metakoqnitiv-təhlil etmək
   E) Konseptual-tətbiq etmək

7. *"x·3 +214=235 kökünün 8 mislini tapın".*
   **Tapşırıq təfəkkürün hansı növünün inkişafına yönəlmişdir?**
   A) Məntiqi
   B) Tənqidi
   C) Yaradıcı
   D) Abstrakt
   E) Verbal

8. **Cədvələ əsasən *doğru* fikri müəyyənləşdirin.**

| *Doğru* | *Yanlış* |
|---|---|
| 1. **Açıq suallar** "bəli" və ya "yox" cavabını tələb etməməlidir. | 3. **Açıq suallar** həm yuxarı, həm də aşağı təfəkkürə aid ola bilər. |
| 2. **Qapalı suallar** müxtəlif fərziyyələr doğurmamalıdır. | 4. **Qapalı suallar** şagirdin təxəyyülünə uyğun cavab tələb etmir. |

   A) 1, 2
   B) 2, 3
   C) 3, 4
   D) 1, 4
   E) 2, 4

**9.** *“Müəllim esse yazdırır və özünüqiymətləndirməni təmin etmək üçün şagirdlərə rubrik təqdim edir. Şagirdlər rubrikdən istifadə edərək özlərinin güclü və zəif tərəflərini müəyyənləşdirə bilirlər”.* **Bu, şagirdlərdə biliyin hansı növünün inkişafına xidmət edir?**
A) metakoqnitiv
B) konseptual
C) prosedural
D) faktoloji
E) strateji

**10. Kinestetik təlimə aid *olmayan* variantı seçin:**
A) Bu təlimdən istifadə ediləndə şagirdlərin yaradıcılığının inkişafına şərait yaranır.
B) Rollu oyunların, təcrübələrin aparılması və s. bu təlim zamanı geniş istifadə olunur.
C) Bu təlim verilən biliklərin bacarığa çevrilməsinə daha çox şərait yaradır və şagirdlərdə kompetensiya formalaşdırır.
D) Daha çox şagirdmərkəzli modeldir, çünki bilavasitə şagirdin fəaliyyətinə yönəlmişdir.
E) Şagirdlərdə bacarığın formalaşdırmasına yönəldiyi üçün akademik biliklərin diferensial şəkildə verilməsinə şərait yaradır.

**11. E. Deylin təlim piramidasına görə hansı fikir *doğrudur*?**
A) Qruplarla iş zamanı şagirdlərin qavraması yüksək səviyyəyə qalxır.
B) Şagird məruzə hazırlayarkən öyrənməsi o qədər də yüksək olmur.
C) İnsan eyniadlı əsərə çəkilmiş filmə baxanda da, əsəri, sadəcə, kitabdan oxuyanda da qavraması eyni olur.
D) Bir tapşırığın şəklinə baxmaq o tapşırıqla bağlı fəaliyyəti izləməkdən daha effektivdir.
E) Şagirdlər təqdimatı dinləyərkən də, hazırlayarkən də informasiyanı qavraması eyni olur.

**12. Hansı intellektə daha çox sahib olan şagirdlər üçün sinkveyn üsulu maraqlıdır?**
A) Bədən-kinestetik
B) Verbal-linqvistik
C) Naturalist
D) Məkan-vizual
E) Musiqi-ritmli

**13.** *Müəllim şagirdlərə hekayə yazmağı tapşırıb. Şagirdlərdən biri düşünür: “Hekayələrdə, adətən, baş qəhrəman müsbət obraz olur. Deməli, mənim də yaratdığım hekayədə baş qəhrəmanın müsbət xüsusiyyətləri olmalıdır”.* **J.Piajeyə görə, şagird zehni inkişafın hansı mərhələsində bu şəkildə düşünməyə başlayır?**
A) konkret əməli
B) formal əməli
C) ilkin əməli
D) hissi-hərəki
E) verbal-linqvistik

**14.** *“Müəllim səhv etməyin təhlükəli bir şey olmadığını daima şagirdlərinə aşılayır. O, uşaqlara səhvlərdən qorxmamağı və səhvlər üzərində öyrənməyin vacibliyini izah edir və daim dərslərində bu prinsipdən istifadə edir”.* **Hansı nəzəriyyəyə görə, müəllimin şagirdlərə belə yanaşması öyrətməni səmərəli edən əsas meyarlardan biridir?**
A) H. Qardner “Çoxnövlü zəka”
B) J. Piaje “Zehni inkişafın mərhələləri”
C) B.F. Skinner “Operant şərtlənmə”
D) L. Vıqotski “Sosial inkişaf”
E) K. Dvek “Düşüncə tərzi”

**15. Effektiv müəllim-valideyn, müəllim-şagird münasibətlərinin qurulmasına aid *deyil.***
A) Müəllimin şagirdin müsbət tərəfləri ilə bağlı valideynə pozitiv məzmunlu zəng, imeyl göndərməsi lazımdır.
B) Müəllimin formativ qiymətləndirmə dəftərində təsviredici və konstruktiv qeydlər aparması və valideynlə vaxtaşırı bölüşməsi müəllim-valideyn münasibətlərinə müsbət təsir edir.
C) Bəzən sinif fəaliyyətlərinə valideynlərin cəlb edilməsi həm müəllim-valideyn, həm də müəllim-şagird münasibətlərinə müsbət təsir edir.
D) Yarımillik akademik nəticələrin valideyn iclasında ümumi şəkildə müzakirəsi valideynlərin müəllimlə münasibətinə müsbət təsir edən faktorlardandır.
E) Övladının təlimə marağı, nailiyyətləri və davranışı ilə maraqlanmayan valideynlə müəllimin özünün münasibət qurmağa davamlı cəhd etməsi lazımdır.

**16. Biri effektiv müəllim-şagird münasibətlərinin qurulmasına aid *deyil*:**

A) Şagirdlərlə hələ onlara dərs keçməmişdən əvvəl tanış olmaq
B) Biliklərin mənimsənilməsinə geniş yer vermək
C) Şagirdlər suallara səhv cavab verdikdə belə onları mühakimə etməmək.
D) Şagirdlərin məktəb həyatı ilə bağlı əks-əlaqələrini nəzərə almaq
E) Təlimdə şagirdlərin sevdiyi oyunlara yer vermək

**17.** *32865 ədədinin yüzlüklərə qədər yuvarlaşdırdıqda neçə faiz azaldığını müəyyən edin.*

**Tapşırıq təfəkkür və biliyin hansı növünün inkişafına yönəlmişdir?**

A) Məntiqi-prosedural
B) Tənqidi-deklarativ
C) Məntiqi-konseptual
D) Tənqidi-prosedural
E) Yaradıcı-metakoqnitiv

**18. Verilənlərdən hansılar təhsilverənlərin hüquqlarına *aiddir?***

1. *Təhsil müəssisəsində vəzifə tutmaq*
2. *Şagirdləri müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq*
3. *Təhsil prosesinin təşkilində və idarəolunmasında iştirak etmək*
4. *Sinifdənxaric və məktəbdənkənar tədbirlər keçirmək*
5. *Mükafatlandırılmaq və təltif olunmaq*

A) 2, 4, 5
B) 1, 3, 5
C) 1, 2, 5
D) 2, 3, 4
E) 1, 3, 4

**19. Sinfin idarəedilməsi ilə bağlı verilənlərdən hansı doğru *deyil*?**

A) Müəyyənləşdirilən gözlənti və prosedurlara dərs ilinin ilk günlərindən müəllimin özü də israrla riayət etməlidir.
B) Şagirdlərin sinif prosedurlarına əməl etməsi onların yoldaşları ilə davranışının tənzimlənməsində əsas faktordur.
C) Şagirdləri yanlış davranışın mümkün nəticələri ilə məlumatlandırmaq lazımdır ki, davranışlarında diqqətli olsunlar.
D) Sinif prosedurları yerinə yetirilən zaman müəllimin israrlı olması lazımdır ki, prosedur işlək olsun.
E) Sinfin effektiv idarəedilməsi şagirdlərdə daxili intizam formalaşdırır ki, bu da xarakterin formalaşmasına müsbət təsir göstərir.

**20. Sual işarəsinin yerinə nə yazılmalıdır?**




A) Məntiqi-riyazi
B) Verbal-linqvistik
C) Bədən-kinestetik
D) Fərddaxili
E) Naturalist